# Milli Məclisin komitələrinin birgə iclasında "Media haqqında" qanun layihəsinin geniş müzakirəsi keçirilib



Dekabrın 28-də Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında "Media haqqında" qanun layihəsinin ikinci oxunuşdan sonra geniş ictimai müzakirələri keçirilib.

Ölkənin aparıcı media orqanlarının və qurumlarının rəhbərlərinin və nümayəndələrinin iştirak etdiyi iclası açan Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, "Media haqqında" qanun layihəsi birinci və ikinci oxunuşlarda çox geniş müzakirə olunub, deputatlar çoxlu sayda təkliflər irəli sürüblər. Bu layihənin birinci oxunuşu yenə bu komitələrin birgə iclasında ictimai müzakirə formatında olub. İşçi qrupunun üzvləri və deputatlar media nümayəndələri ilə 10-a yaxın görüş keçiriblər.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, bu qanun medianın konstitusiyasıdır, təməl qanunudur. Komitə sədri iştirakçıları müzakirələrdə bu qanunun qəbulundan sonrakı dövrdə addımların nədən ibarət olması ilə bağlı fikirlərini bildirməyə üstünlük verməyə çağırıb.

Müzakirələr zamanı media nümayəndələri çıxış edərək fikir və təkliflərini səsləndiriblər. Qeyd edilib ki, "Media haqqında" qanun layihəsi heç bir halda söz, fikir və mətbuat azadlığı kimi əsas hüquqların məhdudlaşdırılmasına xidmət etmir. Qanun layihəsində yer alan imtiyaz və güzəştlər media subyektlərinin və jurnalistlərin peşəkarlığının artırılmasına zəmin yaradacaq.

İclasda səslənən fikirlərə münasibət bildirən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bildirib ki, layihə qəbul olunacağı təqdirdə qanun media sahəsində bütün istiqamətlər üzrə islahatların həyata keçirilməsi üçün zəruri hüquqi platforma rolunu oynayacaq və prosesin sürətlə həyata keçirilməsinə, boşluqların aradan qaldırılmasına zəmin yaradacaq. Media sahəsində hüquqi çərçivəni müəyyən edəcək qanunun qəbulundan sonra müvafiq normativ aktların qəbul olunacağını bildirən Əhməd İsmayılov bu sənədlərin də tezliklə müzakirəyə çıxarılacağını bildirib.Vurğulanıb ki, media subyektlərinin və jurnalistlərin fəaliyyətinin hüquqi müstəvidə tənzimlənməsinə imkan yaradacaq sənəd həm də mediadakı qeyri-müəyyənliklərə son qoyacaq, KİV-in peşəkarlığının artırılmasını stimullaşdıracaq.

İclasda iştirak edən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib ki, müzakirəyə çıxarılan layihənin ölkənin milli qanunvericilik sistemində fundamental hüquqi bazası mövcuddur. Hazırda qüvvədə olan "Kütləvi informasiya vasitələri haqqında" və "Televiziya və radio yayımı haqqında" qanunlar uzun müddət Azərbaycanda media sahəsində fəaliyyəti tənzimləyən faydalı sənədlər olub. Bu qanunlar əsasında vahid bir sənədin hazırlanması zamanın tələbindən irəli gələn zərurətdir.

Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov qanun layihəsi ətrafında aparılan müzakirələr barədə danışıb və nəticədə konsensusun əldə edildiyini deyib.

Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli iclasda çıxış edərək bildirib ki, qanunda insan hüquqları baxımından hər hansı məhdudlaşdırıcı norma mövcud deyil. Əvvəlki qanuna müsbət rəylər verilib, yeni qanunda həmin normalar qorunub saxlanılıb.Yeni normalar isə tənzimləyicidir, məhdudlaşdırıcı deyil. Bildirilib ki, Azərbaycanın Avropa təsisatları ilə insan hüquqları sahəsində əməkdaşlığı uğurla davam edir və yeni qanun da bunun ən yaxşı nümunələrindən biridir.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc "Media haqqında" qanun layihəsi ilə bağlı müxtəlif platformalarda aparılan müzakirələr, səsləndirilən fikirlər barədə məlumat verib. Komitə sədri güclü medianın dövlətin də güclənməsində vacib rol oynadığını söyləyib. O, qanun layihəsinin media azadlığının gücləndirilməsi, sağlam jurnalistikanın inkişafı, xaricdən asılılığın aradan qaldırılması nöqteyi-nəzərindən əhəmiyyətini qeyd edib, qanun layihəsinin hüquqi cəhətdən yaxşı hazırlandığını bildirib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***